

*Rəhim Mehnət*

## QAYIT GƏL

Gecikmərəm sən olduğun qatara,
Gözlərimi nəmləmişəm, qayıt gəl.
Mənim sevgim sənlə yetir nubara,
Gəlişini gözləmişəm, qayıt gəl....

Bu dünyanın çəkiləsi dərdi çox,
Açılası, bükülesi dərdi çox,
Hər şey mənə çətin olur sənsiz, çox,
Gəlişini gözləmişəm, qayıt gəl.

Ağac olub yollarında bitmişəm,
Soyuq vurub, qar-boranda itmişəm,
Sənsizliyi şərbət edib içmişəm,
Gəlişini gözləmişəm, qayıt gəl.

## QƏBRİMİN ÜSTƏ

Get sevgi bağından dər çiçəkləri,
Gətir sinəm üstə sər çiçəkləri.
Qoyma kədər alsın tər çiçəkləri,
Sən gəlib tək ağla, qəbrimin üstə.

Kövrək ürəyində daş mən olmuşam,
Kiprikdən yanağa yaş mən olmuşam.
Bir qumral gözlüyə düşmən olmuşam?
Sən gəlib tək ağla, qəbrimin üstə.

Axtar səhərlərin şehində məni,
Axtar ürəyinin mehində məni.
Axtar günahında, ahında məni,
Sən gəlib tək ağla, qəbrimin üstə.

Kədər də, qüssə də sovuşacaqdır,
Bədənim torpağa yovuşacaqdır.
Ruhumuz nə vaxtsa qovuşacaqdır,
Sən gəlib tək ağla, qəbrimin üstə.

## BU ŞƏHƏR və SƏN

Bu şəhərin sən qoxuyan,
Həsrət dolu küçələri.
Uzaqlardan seyr eləyib,
Köks ötürüb neçələri.

Keçdiyimiz bu küçələr,
Sənlə-mənlə, yol gedirdi.
Hər dönəndə, bir dalanda,
Bir birini itirirdi.

İldırımın ah naləsi,
Külək dəyən yarpaqların.
Yol kənarı çıraqların,
Pıçıldayan titrək səsi.
Sən yadıma saldın yenə,
Həm gündüz, həm gecələri.
Bu şəhərin sən qoxuyan,
Həsrət dolu küçələri....